AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | Azərbaycan Respublikası Mərkəzi Bankın İdarə Heyətinin Qərarı |
| Qəbul edildiyi tarix | 27.05.2015 |
| Qeydiyyat nömrəsi | 23/2 |
| Adı | "Azərbaycan Respublikası rezidentlərinin qeyri-rezidentlərlə maliyyə əməliyyatlarına dair hesabatın tərtibi və təqdim edilməsi haqqında Təlimat"da dəyişikliklər edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 03.06.2015 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 090.060.010 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 23201505270232 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 02.06.2015 |

"Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 yanvar tarixli 844 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan

Respublikası Prezidentinin 2014-cü il 22 dekabr tarixli 430 nömrəli Fərmanının 7-ci hissəsinin icrası məqsədi iləAzərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikası Qanununun 22.0.17-ci maddəsinəəsasən

**Q Ə R A R A  A L I R:**

1. “Azərbaycan Respublikası rezidentlərinin qeyri-rezidentlərlə maliyyə əməliyyatlarına dair hesabatın tərtibi və təqdim edilməsi haqqında Təlimat”da dəyişikliklərtəsdiq edilsin (əlavə olunur);

2. Hüquq departamentinə (R.Məlikova) tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**Sədr** **Elman Rüstəmov**

“Təsdiq edilmişdir”

Azərbaycan Respublikasının

Mərkəzi Bankı

Qərar № 23/2

27 may 2015-ci il

**“Azərbaycan Respublikası rezidentlərinin qeyri-rezidentlərlə maliyyə əməliyyatlarına dair hesabatın tərtibi və təqdim edilməsi haqqında Təlimat”da dəyişikliklər**

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2013-cü il 18 dekabr tarixli 25/4 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası rezidentlərinin qeyri-rezidentlərlə maliyyə əməliyyatlarına dair hesabatın tərtibi və təqdim edilməsi haqqında Təlimat”a Əlavə № 3-də “Əməliyyat növlərinin adı” sütununda “I Qrupu Digər investisiyalar üzrə” bölməsinin 82-ci, 84-cü, 87-ci və 89-cu sətirlərində “(ARDNŞ)” abreviaturası “(SOCAR)” abreviaturası ilə əvəz edilsin.